ŞİMŞƏKLƏR, YILDIRIMLAR

YAŞAMAQ İNDİ GƏRƏK

Baxma ki, yerdə ələm, göydə bulud var, qardaş,
Bir fəğan bəslənilir, çünki sükut var, qardaş!
Qorx ölümdən ki, bugün ölməyə imkan çoxdur,
Yaşamaq indi gərəkdir ki umud var, qardaş!

Yaşamaq indi gərəkdir ki həyat qurcalanır,
Gündə düşmənlərinin dərdinə min dərd calanır,
Göz önündə yıxılır qosqocaman bir dövlət,
Çatlayıb imperatorluq, sökülür, parçalanır.

Yaşamaq indi gərəkdir ki, dəyişməkdə həyat,
Gecə-gündüz dəyişiklikləri duyduqca ürək,
Çırpınır quş kimi, ənginlərə açdıqca qanat,
Bir inancla alışır ruh, yaşamaq indi gərək!

1990

MİNNƏTİM YOXDUR MƏNİM

Hər zaman, hər yerdə yüksəklərdəyəm,
Hər sözüm bir alçağa oxdur mənim.

Çox da ki azdır yaşım, çox görmüşəm,
Ruhum acdır da, gözüm toxdur mənim.

Az deyil dünyada dostum, düşmənim,
Dostum azdır, düşmənim çoxdur mənim.

Doğmalardan almışam ilhamımı,
Özgələrdən minnətim yoxdur mənim!

1962

KİŞİNİ

Kişini eyləməz bərbad
Kişi arvad, kişi övlad...

1963

EŞİT

Eşit, oğlum, atan nə söylər, eşit,
İgidin köksünü qılınc çatmaz.
Alçağın qulluğunda durmaz igid,
Tülkünün kölgəsində qurd yatmaz.

1970

BƏXTİMİN ULDUZU

O gözəl qız uca bir ulduzdur,
Bəxtimin ulduzuna güzgü tutub,
Eyləməz eşqimin üfqündə qürub,
Onsuz aləmdə qəmim sonsuzdur.

1986

İBLİSLƏR

Dəbərirkən gəbərsin iblislər,
Özünü yaxşı göstərən pislər,
Maskalanmış min üzlü artistlər,
Aləmi zindan eyləmək istər,
Ey Zəka, onları tanıt, göstər.

1962

MEHRİBANLAR

Mehribanlar mehribanlar yanındadır,
Mehribanlıq yaxşıların qanındadır,
Mehribanlıq gələr ancaq əllərindən,
Bu onların ürəyində, canındadır.

1961

YAPALAQLAR

Ərlər vuran arxadan o alçaqlardır,
Onlar yapalaqlar kimi qorxaqlardır!
Təyyarə qaçırdanmı çıxar onlardan?
Terrorçuların murdarı daşnaqlardır!

1985

NƏRDƏDİR, NƏRDƏ

Yer üzündə yox yeri daşnaqların,
Dərsini vermək gərək alçaqların!

Naxçıvanda Zəngəzur birləşməli,
Türk olan Türk yurduna yerləşməli!

Dolmuş iblislərlə cənnət yurdumuz,
Nərdədir, nərdə basılmaz ordumuz?!

1990

TALANÇIYA

Köpəklər yançağın olmuş, sağın daşna, solun xıncaq,
Bu varlıqda varıb varlanmaq istər varlığın ancaq!
Yuvan, yurdun yıxılsın, ey ölümdən zövq alan alçaq,
Saçar od süngüsündün Ayla, yıldızla yanan sancaq!

1990

ÇAĞIMIZDA

Xalqımız, yurdumuzun haqq səsinə
Yer üzü səs verəcəkdir umdu.
Xaçpərəst ölkələrin başçıları
Türklərin matəminə göz yumdu,
Türkiyə eylədi fəryad ancaq,
Türkə türkdən gəlir imdad ancaq!..

İLLƏTİM

Hankı illətdir o illət ki, bizim yurdda qoşar!
Birisi məşvərət eylər birisiylə rusca!
Hankı millətdir o millət ki, qürurla konuşar
Ölüsüylə ərəbiycə, dirisiylə rusca?!

TÜRKLÜK

Mən çocuqkən düşünüb türklüyümü dərk etdim,
Ruhumu, varlığımı, mənliyimi Türk etdim.

QARA DƏNİZ

Sənin üstündə buludlar çağlar,
Yıldırımlar qopar altında sənin!
Sana düşmən kəsilən alçaqlar
Gömülər kuytu qaraltında sənin!

DOST

Könlüm ömrüm boyu dostlarla dolaydı deyirəm,
Dost olan dostunu dar gündə bulaydı, deyirəm,

Ey Zəka, sən kimi dost qədri bilən dost azdır,
Kaş, mənim sən kimi bir dostum olaydı deyirəm.

ULUTÜRK

Sanma tərk oldu Rıza oğlu Xəlil,
Bizə görk oldu Rıza oğlu Xəlil!
Ulutürk ismini mən verdim ona,
Uluturk oldu Rıza oğlu Xəlil!

SEVİRƏM MƏN SƏNİ CANDAN

Bir oğulsan, ulusa aşiqsən,
Ən gözəl sözlərə sən layiqsən.
Adına qoşmalıyam bir dastan,
Səni üstün tuturam min dostdan,
Dostluğa sən nə qədər sadiqsən!

Tutduğun şanlı yolu kim sevməz?
Yurda can başla qulu kim sevməz?
Sevirəm mən səni, candan sevirəm,
Bu cahana göz açandan sevirəm,
Sən kimi bir-oğulu kim sevməz?

Mənə ən incə gülü sən dərdin,
Könlümü ilk bahara döndərdin.
Sən kimi bir igidə can qurban,
Səni heç vaxt unutmam, Qurban,
Məni sən Türkiyəyə göndərdin!

Ankara, 1987

20 YANVAR

Haqq deyib, haq dilədi haqqa tapan yurddaşlar,
Haqq deyən milləti susdurmaq olarmı tankla?!

Ulusun cəngi şəhid verdiyi gündən başlar,
O şəhidlər əbədi yüksələcək bayraqla!

Bu qədər vəhşilik olmaz, bu qədər qansızlıq!
Quduz alçaqların ortaqlığı qorxaqlıqdır!

İndi durmaq, deyirəm, ən azı vicdansızlıq,
İndi susmaq, deyirəm, ən azı alçaqlıqdır!

1990

MÜNDƏRİCAT

Ön söz 4

SİZDƏNƏM MƏN

Türkdaşlara 9
Həyatda 10
Adi gün bilməyin 10
Şairə nə gərək 11
"Mənim şeirlərimdən..." 12
Dünya ulu dünyadır 12
Gözəl İzmir, gözəl Bakı 13
Qardaş, olmaz 14
Mərdlər, namərdlər 15
"Könül qürbət elə..." 15
"Sevda bulağından..." 15
"Oğulları ölən..." 15
"Sən ey Odlar yurdu..." 15
"Bu yurddan çağlayardı..." 16
"Yurddaşım, könlümün səsini..." 16
"Yaşayır şair olanlar..." 16
"Sən, Rəfiq, ən ulu sevdaya..." 17
"Ocaq bir odlu bulaqdır..." 17
"Çağlayan hisslərimin..." 18
"Gərək insan olan..." 18
"Ulusuyla öyünənlər..." 18
"Ulusumdur insanlığın..." 18
"Ey Xəzər, dalğalarınla..." 18
"Anadan iblis olan..." 18
"Su ilə canlanır..." 18
"Dünya gözəlləri..." 19
"İnsanın qüdrəti..." 19
"Könlümə doldu ayrılıq..." 19
"Dənizin ruhu var..." 19
"Ulu dağlarda... " 19
"Bu körpə dadlı..." 19
"Ölümtək zamansız..." 20
Bir şey olmasın 20
"Kədər gələndə..." 21
"Azadlıq ilə zəfər..." 21
Zaman 21

"Ölümü dərd edənin..." 21
"Bu dünya bir nağıl..." 22
"Neçə yerə haçalanıb..." 22
"Həyatı gözdən salan..." 22
Öləndən sonra 22
Günəş kimi 23
Gündəlik yazılar 23
Göylər 24
Yaşıl 24
Rüzgarlar, dalğalar 25
Bu dağlar 25
Sonsuzlaşmaq 25
Milyonların diləyi 26
Öyün 26
Şairin 26
Dərslər 27
Vətən sevgisi 27
Dalğalar 27
Ulu sevgi 27
Dadmaq lazım 28
Deyib 28
Bayquşu susdur 28
Dənizdir 28
Bir ömür 30

GÖZƏLİM DÜNYA

Bir ulusun 32
Şair olanın 32
Əl çalan 32
"Həyat dolu..." 32
Ulu şairlər 33
Ey şairlər 33
"Ağ günlər eşqinə..." 33
"Hər kəsin dünyada..." 33
"Günəş görünərmi..." 34
"Ulusun var, elin var..." 34
Şəkillər albomu 34
Ayrıldıq, Atam 35
Türkmən qızı 36
"Durma dərğın kimi..." 38
"Bir odlu susuzluq..." 38

"Ulusu anlamayanlardan..." 38
Bülbül 38
"Hər zaman şair..." 39
"Ulu gözəlliklə dolu..." 39
"Ulu ustadları duymaq..." 39
"Gələcək eşqinə..." 39
Olunca 40
Yaralı quşun fəryadı 40
"Bu el bulağıdır..." 42
"Sənətkar müjdələr..." 42
"Mənim hər şerimdə..." 42
"Mənə yabançıdır..." 42
"Böyüyə ağzını büzmək..." 42
"O şey ki insana..." 42
"Xəndanım, ərdəmli..." 43
Uca Tanrım 43
Dünya dinləyir 43
Ölümün ən gözəli 43
Güləcək 43
Qovaq 45
Nağıl 46
"Ocaqdaşlarım" kitabı 47
Yadırğamayın 47
Sarı sim 48
Həyat ölümsüz olar 48
Gedər 49
Gül nəfəsli bülbüllər 49
"Ölü dillər var..." 50
"Oğul, açan gərək..." 51
Dadlı çiçək 51
Şairin ömrü 51
Yaşıl gözlər 51
Gözəlim həyat 52
Dinləyin 52

AXIB GEDƏN GÜNLƏRİMİZ

Axıb gedən günlərimiz 53
El gücü – sel gücü 54
Dost sevgisi 54
Ərdəmlilər 55
Mən Qara dənizə aşiq olmuşam 56

Məzar daşım üçün 57
Sabah yeli 57
Yaralı qurd 58
Qış getdi, bahar gəldi 60
Balış nənəm 61
Ulu ustadlar 61
"Yoxdur mənə səndən uca..." 61
Füzulinin şəkli 62
Bakı – İstanbul 62
Düşmən 62
Anama 63
Ölkəmdə 63
Yıxılmaz 64
Yallı yarandı 64
Çocuqlarım 64
Qəfəsdə 64
İnsanlar, canlılar 65
Dostlarla olanda 66
Köhnə dostlarım 66
Məhkum xalqıma 67
Bir şairin ömrü 67
Qucağındadır 67
Əbədi 67
Dilimdən düşməyən 68
Ağ tut ağacı 68
Müşfiq küçəsində 69
Ocaq 69
İdbar 70
Neylər 70
Ovçu 70
Yurd gözəllikləri 71
Nə çıxar 71
"Yerləri bürüyüb..." 71
Krım 71
"Arazın ölümdən..." 73
"Telefonla çox uzun..." 73
"Qəribin üstünə..." 73
Bir yurd ki... 73
"Bir halda ki..." 74
"Köksündə açıb yara..." 74
Ulular xəzinəsi 74